# THEORETICAL AND PRACTICAL SIGNIFICANCE OF THE INFLUENCE OF CHILDREN'S FAMILIARITY WITH THE ENVIRONMENTAL WORLD ON THE DEVELOPMENT OF THEIR THINKING

**Sadagat Aliyeva**

Azerbaijan State Pedagogical University,
PhD in pedagogy, associate professor
E-mail: aliyevasedaqet.29@mail.ru
https://orcid.org/ 0009-0008-6202-0070

**Abstract.** The article talks about the importance of studying the methodology subject of familiarization with the environment, which is one of the leading methods for future educators-teachers studying in higher education institutions, and the way students acquire deep and solid knowledge, skills, and habits through this subject. With the help of this course, future educators and teachers acquire important skills in increasing children's interest in the environment and introducing them to the environment through the environmental familiarization exercises intended for all groups of preschool institutions. The article also explains the ways to introduce preschool children to the world around them and explains its theoretical and practical bases. Methods and forms are shown to teach students about the social and natural environment surrounding children, and the changes and development processes taking place there, following their age and knowledge levels. At the same time, it talks about the ways to arrange exercises and corners suitable for different age groups.

**Keywords:** acquaintance with the surrounding world, educator-teacher, preschool child, exercise, interest, and skills.

**DOI:** 10.30546/2709-2488.4.2023.79
**To cite this article:** Aliyeva S. (2023). Theoretical and practical significance of the influence of children's familiarity with the environmental world on the development of their thinking. *Journal of Preschool and Primary Education*, Vol. 245, Issue IV, pp. 79-89.
**Article history:** received – 20.11.2023; accepted – 19.12.2023.

# UŞAQLARIN ƏTRAF ALƏMLƏ TANIŞLIĞININ ONLARIN TƏFƏKKÜRÜNÜN İNKİŞAFINA TƏSİRİNİN NƏZƏRİ VƏ TƏCRÜBİ ƏHƏMİYYƏTİ

**Sədaqət Əliyeva**

Azərbaycan Dövlət Pedaqoji Universiteti,
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
E-mail: aliyevasedaqet.29@mail.ru
https://orcid.org/ 0009-0008-6202-0070

**Annotasiya.** Məqalədə tərbiyəçi-müəllimlər üçün aparıcı metodikalardan olan ətraf aləmlə tanışlığın metodikası fənninin öyrənilməsinin əhəmiyyətindən, bu fənnin vasitəsi ilə bu sahədə təhsil alan tələbələrin dərin və möhkəm bilik, bacarıq və vərdişlərə yiyələnmələrindən bəhs olunur. Bu kursun köməyi ilə gələcək tərbiyəçi-müəllimlər məktəbəqədər müəssisələrin bütün qrupları üçün nəzərdə tutulan ətraf aləmlə tanışlıq məşğələlərində uşaqların ətraf aləmə marağının artırılmasında, onların ətraf aləmlə tanış edilməsində mühüm bacarıqlar əldə edirlər. Məqalədə, həmçinin məktəbəqədər yaşlı uşaqları ətraf aləmlə tanış etməyin yolları açıqlanır, onun nəzəri və praktik əsasları izah edilir. Uşaqları əhatə edən sosial və təbii mühit, orada baş verən dəyişikliklər və inkişaf proseslərini yaş və bilik səviyyələrinə müvafiq şəkildə öyrətmək üçün metod və formalar göstərilir. Eyni zamanda, müxtəlif yaş qruplarına uyğun məşğələlər və guşələr tərtib etmək yollarından bəhs edilir.

**Açar sözlər:** ətraf aləmlə tanışlıq, tərbiyəçi-müəllim, məktəbəqədər yaşlı uşaq, məşğələ, maraq və bacarıqlar.

**DOI:** 10.30546/2709-2488.4.2023.79
**Məqaləyə istinad:** Əliyeva S. (2023). Uşaqların ətraf aləmlə tanışlığının onların təfəkkürünün inkişafına təsirinin nəzəri və təcrübi əhəmiyyəti. *«Məktəbəqədər və ibtidai təhsil»*, № 4 (245), səh. 79-89.
**Məqalə tarixçəsi:** göndərilib – 20.11.2023; qəbul edilib – 19.12.2023.

## Giriş / Introduction

Məktəbəqədər yaş insanın həyatında xüsusilə vacib bir dövrdür. Bu yaşda əldə edilən *neoplazmalar* gələcəkdə şəxsiyyətin formalaşması üçün zəmin yaradır. İnsan ətraf aləm, təbiət haqqında elementar bilikləri uşaqlıq dövründə əldə edir.

Uşağın ayrı-ayrı obyektləri səthi qavraması, məntiqi düşünməyi öyrənməsi, lüğət ehtiyatını inkişaf etdirməsi ətraf aləmlə tanışlıq prosesində baş verir. Məktəbəqədər yaşlı uşaqlarda əqli tərbiyənin formalaşması ətraf aləmlə tanışlıqdan başlayır. Ətraf aləmlə tanışlıq prosesində uşaqlar müxtəlif biliklərə yiyələnirlər.

Əqli tərbiyənin formalaşmasına təsir edən mühüm amillər ətrafdakı reallıqlar – insanlar, obyektlər, təbiət, təbiət hadisələri, sosial hadisələrdir. Ətraf aləmlə qarşılıqlı əlaqə sayəsində uşağın mövcud obyektlər haqqında məlumatı artır, idrak prosesləri inkişaf edir. Uşaqlar müxtəlif obyektləri müşahidə edərək onların adlarını, xüsusiyyətlərini, əlamətlərini (*rəng, ölçü, forma*) və s. keyfiyyətlərini öyrənirlər.

Məktəbəqədər yaşlı uşağın ətraf aləm haqqında əldə etdiyi bilikləri dörd qrupda sistemləşdirmək olar:

- cansız təbiət haqqında biliklər;
- bitkilər haqqında biliklər;
- heyvanlar aləmi haqqında biliklər;
- böyüklərin təbiətdəki fəaliyyəti haqqında biliklər.

Kiçik qrupda uşaqlar ətraf aləmdəki obyektlərlə tanış olur, orta qrupda ümumiləşdirməyi və sistemləşdirməyi öyrənir, böyük və məktəbəhazırlıq qruplarında isə artıq obyektlər və hadisələr arasında səbəb-nəticə əlaqəsini müəyyənləşdirməyi və qurmağı bilirlər.

Təbiətlə tanışlıq ətraf aləm haqqında bilikləri öyrənməyin ən əlçatan formasıdır. Təbiətlə tanışlıq nəticəsində uşaqlar analizatorların (eşitmə, görmə və s.) fəaliyyətini təkmilləşdirir, müxtəlif təfəkkür elementlərini inkişaf etdirir, məntiqi düşünməyi, səbəb-nəticə əlaqələrini müəyyən etməyi, ümumiləşdirmələr aparmağı və birgə fəaliyyət prosesində ünsiyyət qurmağı öyrənirlər. Beləliklə, təbiətlə tanışlıq yolu ilə uşaqlarda əqli, fiziki, əxlaqi, estetik və əmək tərbiyəsinin əsası qoyulur.

## Əsas hissə / Main part

Məktəbəqədər yaş dövründə təbiətlə tanışlıq uşaqlarda elementar biliklər sistemini, əmək bacarıq və vərdişlərini, təbiətə məhəbbət hissi formalaşdırır. “Mək-

təbə gedənədək uşaqlara təbiət qanunları və qanunauyğunluqları, həmçinin təbiət və cəmiyyət qanunları, qanunauyğunluqları arasında əlaqələr başa salınmalıdır. Tərbiyəçi-müəllim ətraf aləmlə tanışlıq prosesində uşaqların təsəvvür dairəsinin genişləndirilməsi üçün onların diqqətini əhəmiyyətli hadisələrə yönəltməyə çalışmalıdır" [Sadıqova T., Əliyeva Z., 2011].

Aparılan sistemli müşahidə prosesində uşaqlarda müşahidə, yəni ətraf aləmdəki dəyişiklikləri tez və asanlıqla fərq etmək bacarığı formalaşır, qazanılan biliklər təkmilləşir. Təbiəti müşahidə zamanı uşaqlar çoxlu yeni biliklər əldə edirlər. Onlar təbiətlə tanış olduqda təbiət hadisələrinin ayrı-ayrı qanunauyğunluqlarını – təbiətdəki mövsüm dəyişikliklərini, həyat üçün günəş işığının vacibliyini, heyvanların həyat tərzini, bitkilərin böyüməsinin qulluqdan asılı olduğunu anlayırlar. Həmçinin bəzi təbiət hadisələri və onların qarşılıqlı əlaqəsi haqqında biliklərə yiyələnirlər. Təbiət hadisələrinin, bitkilərin, həşəratların, heyvanların inkişafının müşahidəsi prosesində uşaqlarda ətraf aləm haqqında təsəvvürlərin əsasları formalaşır.

Müşahidə uşaqlarda sabit idrak maraqlarının formalaşmasına kömək edir. Buna görə də təbiətlə tanışlıq məktəbəqədər təhsilin hər bir mərhələsində mövcuddur və müəyyən təhsil problemlərini həll edir. Bu vəzifələrin öhdəsindən bacarıqla gəlmək üçün ali məktəblərdə gələcək tərbiyəçi-müəllimlərə ətraf aləmlə tanışlığın metodikası fənni tədris olunur. Gələcək tərbiyəçi-müəllimlər bu fənni öyrənməklə öz fəaliyyətlərində uğur əldə etmək üçün məktəbəqədər yaşlı uşaqların ətraf aləmlə tanışlığının yolları və vasitələri haqqında biliklərə yiyələnirlər. Məktəbəqədər yaşlı uşaqların ətraf aləmlə tanışlığı tərbiyəçi-müəllimdən xüsusi peşəkarlıq tələb edir. "Müəllimin peşəkar mövqeyi özünə qarşı intellektual, iradi, emosional və dəyərləndirici münasibətlərin, peşəkar fəaliyyətin, özünüinkişafın sabit bir sistemini xarakterizə edən şəxsin dinamik xüsusiyyətidir və peşə fəaliyyətinin yenilikçi xarakterində meydana çıxır. Yalnız peşəkarlıq yeniliklərin təşəbbüskarı ola, yeniliyin tətbiqi prosesinə fəal şəkildə təsir edə bilər" [Mursaqulova R., Əliyeva Ş., 2008].

Tərbiyəçi-müəllim uşaqların müşahidələrini istiqamətləndirməli, onların dərhal fərq etmədikləri cəhətləri göstərməli, analiz və sintez (təhlil və tərkib) fəaliyyətinin inkişafına kömək etməlidir. Tərbiyəçi-müəllimlərin qarşısında duran mühüm vəzifə təbiət haqqında bilikləri hər bir uşağın hərtərəfli inkişafının əsas vasitələrindən birinə çevirmək, onu cəmiyyətin layiqli vətəndaşı kimi yetişdirməkdir.

Tərbiyəçi-müəllimlərin qarşısında duran digər vəzifə uşaqları təbiətə və insana, onları əhatə edən əşyalar aləminə dəyərli, humanist münasibət ruhunda tərbiyə etmək, istək və bacarıqlarını formalaşdırmaq, hər bir uşağın fərdiliyinin inkişafı üçün lazımi şərait yaratmaqdır.

Tərbiyəçi-müəllim yalnız uşaqların təbiət haqqında müəyyən biliklərə malik olmasını deyil, həm də bu fikirlərin kifayət qədər dərin və dolğun olmasını, həmçinin öz fəaliyyətlərində əsaslı şəkildə tətbiq edə bilməsini təmin etməyə çalışmalıdır. Məktəbəqədər yaşlı uşaq təbiət haqqında nə qədər düzgün təsəvvürlər əldə etsə, gələcəkdə məktəb biliklərini bir o qədər yüksək səviyyədə mənimsəyəcək.

Məktəbəqədər yaşlı uşaqları təbiətin ecazkar aləmi və hadisələri ilə necə tanış etmək olar? Uşaq nə qədər kiçikdirsə, onun təlim-tərbiyəsində tərbiyəçi-müəllimin aparıcı rolu bir o qədər böyükdür. O, uşaqları dinləməyə, diqqətlə müşahidə etməyə, düşünməyə istiqamətləndirir, onlarda təbiətlə tanışlığa maraq oyadır, bir çox hadisələri başa düşməyə kömək edir.

Tərbiyəçi-müəllim tərəfindən təşkil edilən ekskursiyalar məktəbəqədər yaşlı uşaqları təbiətlə tanış etməyin əsas yollarından biridir. Müşahidə olunan obyektdən və uşaqların yaşından asılı olaraq, bunlar epizodik, bir neçə dəqiqə davam edən və bir neçə gün ərzində aparılan, uzunmüddətli müşahidələr ola bilər.

Tərbiyəçi-müəllim uşaqları təbiətlə tanış etmək üçün təbiət elmlərinin müxtəlif sahələrindən məlumatlı olmalı, onun inkişaf qanunlarını dərk etməli, təbiətdə mövcud olan cisimlər və hadisələr arasında mövcud olan əlaqələri düzgün izah etmək bacarığına malik olmalıdır. "İnkişafetdirici və dəstəkləyici mühitin yaradılması üçün müxtəlif guşələr (fəaliyyət mərkəzləri) təşkil olunur. Bu guşələr inkişaf sahələri üzrə qurulur və uşağın inkişafını təmin edir. Məktəbəqədər qruplarda elə şərait yaradılmalıdır ki, uşağın sərbəst seçim etmək imkanı olsun. Hər yaş qrupunda bir neçə guşə yaradılır və bunların da hər birində tədqiqat və oyunlar üçün kifayət qədər materiallar təqdim olunur" [Həmidova X., 2019].

Tərbiyəçi-müəllim qrup otağında canlı guşə yaratmalı, bitki və heyvanlara təbiətdə yaşadıqları şəraitə yaxın mühit yaratmağa çalışmalıdır. O, həm də məktəbəqədər müəssisənin təbiət guşəsində bitkiləri yetişdirməyin aqrotexniki qaydalarını, heyvanları (*dovşanlar, quşlar, balıqlar* və s.) saxlamaq üsullarını mənimsəməlidir. "İnkişafetdirici mühit məktəbəqədər yaşlı uşağın sosial-mədəni təşəkkülünü, aktual və yaxın gələcəkdə yaradıcı inkişafını təmin etməyə qadir olan təşkil olunmuş həyati mühitdir" [Əliyeva Ş., Həmidova X., 2020].

Uşaqlara əmək vərdişlərinin aşılanmasında tərbiyəçi-müəllimin nümunəsi həlledici rol oynayır. Zəruri bilik və bacarıqlara malik olan tərbiyəçi-müəllim müxtəlif metodik yanaşmaların köməyi ilə uşağı hərtərəfli inkişaf etdirə bilər.

Tərbiyəçi-müəllim uşaqların təbiət haqqında biliklərə, müxtəlif bacarıq və vərdişlərə yiyələnmələrinə istiqamət verən müxtəlif üsul və vasitələrdən istifadə edir. Uşaqlar tərəfindən təbiət hadisələrinin birbaşa qavranılması və bacarıqların fəal şəkildə mənimsənilməsini təmin edən üsul və vasitələrə üstünlük verilməlidir. Tərbiyəçi-müəllim tərəfindən hekayələrin, bədii əsərlərin oxunmasına, canlı və cansız təbiətin, yaxud onların təsvirlərinin nümayişi ilə aparılan söhbətlərə

geniş yer verilməlidir.

Tərbiyəçi-müəllim müxtəlif üsullardan eyni vaxtda istifadə edə bilər, məsələn, o, müşahidə prosesində obyekti uşaqlara təqdim edərək onu artıq məlum olanlarla müqayisə edir.

Bu üsullardan biri də oyundur. Tərbiyəçi-müəllim oyun elementlərini təqdim edərkən ona uyğun tapmacalar və s. söyləyir, yaxud müşahidə zamanı müqayisə aparır, didaktik oyunlarda müxtəlif nitq vahidlərindən istifadə edir. Müşahidələr, söhbətlər zamanı oyun texnikalarına müraciət edir, izahat zamanı əmək vərdişlərinin öyrədilməsi və s. həyata keçirilir.

"Ətraf aləmlə tanışlıq prosesində didaktik oyunlardan istifadənin əhəmiyyəti ondadır ki, o, uşaqların ətraf aləmə marağını qidalandırır, oyunun məzmununun zənginləşdirilməsi üçün bilikləri mənimsəmənin zəruriliyini dərketmə tələbatını, biliyə həvəsi inkişaf etdirir, malik olduqları biliklərdən istifadə etmək bacarığını formalaşdırır" [Sadıqova T., 2008].

Üsul və vasitələrin müxtəlifliyi, effektivliyi pedaqoqun məharətini səciyyələndirir. Bu üsul və vasitələrin seçimi proqramın məzmunu ilə müəyyən edilir və məktəbəqədər təhsil müəssisəsinin yerləşdiyi mühitdən, müşahidə yeri və obyektindən, həmçinin uşaqların yaşından və bacarıqlarından asılıdır. "Uşağın zəngin emosional aləminin inkişafı oyuncaqlar olmadan mümkün deyil. Məhz oyuncaqlar uşağın həyatında ona hisslərini ifadə etməyə, ətraf aləmi tədqiq etməyə imkan verən, ünsiyyət qurmağı və özünü dərk etməyi öyrədən mühit rolunu oynayır" [Əhmədova A., Əliyeva Ş., 2010].

Məktəbəqədər yaşlı uşaqların ətraf aləmlə tanışlığı prosesində filmlərdən istifadə olunur. Kiçik qrupda səssiz, qısametrajlı filmlər tərbiyəçi-müəllimin sözü ilə müşayiət olunur. Filmə baxmazdan əvvəl tərbiyəçi-müəllim hazırlıq işləri aparır: filmin məzmunu ilə bağlı müşahidələr, ekskursiyalar təşkil edir, uşaqlara mövzuya dair mətnlər oxuyur. Orta qrupda əsas yeri səsli filmlər tutur. Böyük qrupda uşaqlar öz qavradıqlarını nəql etməyə hazırlanırlar. Tərbiyəçi-müəllim filmin nümayişindən əvvəl uşaqların diqqətini onun əsas ideyasına, məzmununa cəlb edən qısa bir giriş söhbəti aparır. Söhbət əsnasında uşaqlara suallar verir, verdiyi sualların cavablarını tapmağı təklif edir. Filmə baxdıqdan sonra uşaqlarla söhbət aparmaqda məqsəd məzmun və tərbiyəvi təsir baxımından ən əhəmiyyətli fraqmentləri vurğulamaqdır. Filmlə ilk tanışlıqdan sonra bir çox vacib məqamlar uşaqlar tərəfindən dərk edilmədikdə, filmə baxış ikinci dəfə təşkil olunur. Bundan əlavə, filmin məzmununu mənimsəmək üçün tərbiyəçi-müəllimin təkrar izahatlarından, rəsmlərdən, ən diqqət çəkən epizodlar haqqında hekayələrdən istifadə edərək işi davam etdirmək lazımdır. Sonda yekun müzakirə aparılır. Yadda saxlamaq lazımdır ki, filmlərə baxmaq uşaqların ətraf aləmlə tanışlıq metodunun bir hissəsi olmalıdır. Filmə baxış və onun müzakirəsi eyni vaxtda təşkil edilməlidir.

Qrupda filmlərdən istifadə edərkən müəyyən tələblər ortaya çıxır. Film uzun müddətli olmamalıdır. Bir qayda olaraq, məktəbəqədər müəssisələrdə on dəqiqədən çox olmayan qısametrajlı filmlər və ya onlardan bir fraqment istifadə olunur. İkinci baxışdan sonra uşaqların filmin məzmununu necə başa düşdüklərini yoxlamaq lazımdır. Bu məqsədlə, baxdıqları filmin mövzusuna dair rəsmlər çəkilir, test sualları əsasında söhbətlər aparılır. Bu şəkildə aparılan işlər uşaqların biliklərini sistemləşdirməyə və ümumiləşdirməyə imkan verir. "Təlim vəzifələri o zaman daha səmərəli həll olunur ki, tərbiyəçi-müəllim təlim-tərbiyə prosesinin təşkilində inteqrativ yanaşmadan məqsədyönlü şəkildə istifadə edir. Tərbiyəçi-müəllim inkişaf və təlim prosesini elə təşkil etməlidir ki, bütün fəaliyyət növlərində uşaqlardan daha çox hərəki fəallıq tələb edilsin" [Məktəbəqədər təhsil (tərbiyəçi-müəllimlər və metodistlər üçün stolüstü kitab)., 2022].

Məktəbəqədər müəssisələrin bütün yaş qruplarının tərbiyəçi-müəllimlərinə aşağıdakı tövsiyələri vermək olar.

1. Tərbiyəçi-müəllim uşaqların idrak fəaliyyətini stimullaşdırmalı, müşahidələr əsasında onlarda ətraf mühit haqqında düzgün təsəvvürlər formalaşdırmalıdır.

2. Bəzi tərbiyəçi-müəllimlər məktəbəqədər yaşlı uşaqlarda müşahidə qabiliyyətinin inkişaf etdirilməsinə diqqət yetirmirlər. Digərləri isə məktəbəqədər yaşlı uşaqların cisimlər və təbiət hadisələri ilə tanışlıq prosesinin yalnız məktəbəqədər müəssisədə mənimsənilməsinin təmin ediləcəyini düşünürlər. Deməli, uşaqlara müşahidə etməyi öyrətmək üçün sistemli iş aparmaq lazımdır.

3.Tərbiyəçi-müəllimin qarşısında duran mühüm vəzifə uşağın qavradığı bilikləri onun birbaşa və sistemli şəkildə toplanmış şəxsi təcrübəsinə əsaslanaraq məharətlə birləşdirməkdir. Burada məqsəd uşaqlara ətraf aləm haqqında məlumat vermək, onlarda təbiət hadisələrinə maraq oyatmaqdır.

4. Məşğələlərdə, ekskursiyalarda, gəzintilərdə, təbiət guşələrində uşaqların müşahidələrinə geniş yer verilməlidir.

5. Tərbiyəçi-müəllim uşaqlara sözlərlə qavranılan obyektləri düzgün əlaqələndirməyi öyrətməlidir ki, hər bir söz uşağa yaxın olan xüsusi məzmunu ifadə etsin. Yalnız bu əsasda anlayışların, ümumiləşdirmələrin və nəticələrin formalaşması üçün möhkəm təməl rolunu oynayan aydın, dəqiq təsvirlər formalaşacaqdır.

6.Tərbiyəçi-müəllim uşağın sinir sisteminin müxtəlif yaş mərhələlərində hansı keyfiyyət və xüsusiyyətlərlə fərqləndiyini, əsas psixi proseslərin – yaddaş, diqqət, təfəkkürün necə inkişaf etdiyini yaxşı bilməlidir. Uşağın marağı tərbiyəçi-müəllimə ciddi və düşünülmüş şəkildə ən təsirli üsul və vasitələri seçməyə, problemə müvafiq pedaqoji şərait yaratmağa, habelə ətraf aləmlə tanış olmaq və müşahidəni inkişaf etdirmək üçün işi düzgün təşkil etməyə kömək edəcəkdir.

7.Tərbiyəçi-müəllim müşahidə etmək üçün obyekt seçməkdə çətinlik çək-

məməli, ətrafdakı mövcud obyektlər üzərində (ağaclar, kollar, qum, gil, çiçəklər və s.) uşaqların müşahidəsini təşkil etməlidir. O, qarşısına məqsəd qoymalı, müşahidənin təşkili formalarını, üsul və vasitələrini düzgün seçməlidir.

"Təlimin əsas forması uşaqların əqli inkişaf məsələlərinin həllinə yönələn, qaydaya salınmış fəaliyyət növü olan məşğələlərdir. Məşğələnin əsas göstəriciləri bunlardır: didaktik prinsiplərin, tədris fəaliyyətinin bütün komponentlərinin olması, qarşılıqlı təlim, dəqiq (reqlamentə salınmış) xarakteri və s." [Əliyeva Ş., 2010].

Əyaniliyi təmin etmək üçün məktəbəqədər müəssisədə ətraf aləmlə tanışlıq üçün lazımi didaktik materiallar və vəsaitlər olmalıdır. Didaktik vəsaitlər, təlim tapşırıqlarına uyğun olaraq, xüsusi hazırlanmış materiallardır. Bunlara həm əyani vəsaitlər, həm də didaktik materiallar daxildir.

Didaktik materiallar hər bir uşağın fərdi şəkildə istifadə edə biləcəyi paylama materiallarıdır. O, xüsusi olaraq say, ölçü, rəng, forma, fəza münasibətləri, hadisələrin xarakterik xüsusiyyətlərini və s. araşdıran məşqlər üçün yaradılmışdır. Didaktik materiallardan istifadə edərək, uşaqlar idrak problemlərini müstəqil həll edə bilirlər.

Məktəbəqədər yaşlı uşaqların təhsilində əyani vəsaitlər üçün müəyyən tələblər qoyulur. Bu əyani vəsaitlərdə konkret təhsil vəzifələri yerinə yetirilməli, onlar uşaqların yaşına uyğun olmalı, bədii cəhətdən yüksək səviyyəli, rəngarəng, cəlbedici və keyfiyyətli olmalıdırlar.

Tərbiyəçi-müəllim müşahidə prosesində veriləcək sualların seçimində və tərtibində çətinlik çəkməməlidir. Tədqiq olunan hər bir problemdə uşağın qazandığı biliklər nəzərə alınmaqla onun üçün əlçatan və başa düşülən, konkret fikirlər olmalıdır. Suallar uşaqları məlumatı aktiv şəkildə qavramağa, yeni bilikləri mənimsəməyə təşviq etməli, onların əqli fəaliyyətini maksimum dərəcədə fəallaşdırmalıdır. Müşahidə prosesində tərbiyəçi-müəllimin şifahi izahı biliklərin hərtərəfli mənimsənilməsi üçün vacib olan obyekt və ya hadisənin müxtəlif cəhətlərinin daha dərindən qavranılmasına yönəldilməlidir.

Ətraf aləmdə mövcud olan obyektlər haqqında düzgün və dolğun biliklər tərbiyəçi-müəllimdə uşaqlarda düzgün təsəvvür formalaşdırmağa kömək edir və əksinə, bu biliklər yetərli olmadıqda pedaqoqlar uşaqlarla iş apararkən çətinliklər yaşayırlar. Tərbiyəçi-müəllimdə ətraflı biliklərin olmaması fərdin inkişafına ətraf aləmin təsirinin lazımi qədər qiymətləndirilməməsinə, müşahidə olunan obyektlərin səciyyələndirilməsində qeyri-müəyyənliyə və qeyri-dəqiqliyə gətirib çıxarır.

Tərbiyəçi-müəllim ətraf aləmdəki obyektlər və təbiət hadisələri üzərində aparılan təcrübələrdən daha geniş istifadə etməlidir. Cansız obyektlərlə və canlılar aləminin üzvləri ilə eksperimentlərin mövzularını daha geniş şəkildə işıqlandır-

maq lazımdır. "Məktəbəqədər yaşlı uşağın ətraf aləmlə tanışlığının təsadüfi olduğu düşünülməməlidir. Burada tərbiyəçi-müəllim yalnız kənar bir müşahidəçi mövqeyi tutmur, uşaqların fəaliyyətini dəstəkləyir, nəzarət edir, iştirakçılar üçün tədricən daha mürəkkəb vəzifələr qoyur. Tərbiyəçi-müəllim, hansı xarici vasitələrdən istifadə olunmasından asılı olmayaraq, uşağın inkişafının fərdi nailiyyətlərini və sürətini nəzərə alaraq, onların fəaliyyətlərini istiqamətləndirmək, genişləndirmək və zənginləşdirmək imkanına malik olmalıdır" [Əliyeva S., 2022].

Uşağa sözlər deyil, faktlar daha tez təsir edir. Tərbiyəçi-müəllim yadda saxlamalıdır ki, mövzuya aid məlumatlar nə qədər maraqlı olsa da, qavramanı çətinləşdirən uzun-uzadı izahatlara ehtiyac yoxdur. O, uşağı əhatə edən ətraf aləmdə baş verən və uşağın dünyanı dərk etməsinə müsbət təsir edən hər anı qiymətləndirməlidir. Uşaqlar bu anları daha yaxşı, emosional qavrayır və uzun müddət xatırlayırlar.

Məktəbəqədər yaşlı uşaqların ətraf aləmlə tanış edilməsində, onların dünyagörüşlərinin əsaslarının qoyulmasında və davranış bacarıqlarının formalaşmasında mühüm amillərdən biri və ən əsası tərbiyəçi-müəllimlərin peşəkar hazırlığıdır. Tərbiyəçi-müəllim hazırlığı aşağıdakı sahələri əhatə edə bilər:

- elmi və ixtisas hazırlığı (təbiətşünaslığın əsaslarını bilmək);
- peşəkar-metodiki hazırlıq (təhsilin müasir metodlarına yiyələnmək və inteqrasiya olunmuş yanaşmaları praktikada tətbiq etmək bacarığı);
- valideynlərlə iş üsullarını mənimsəmək;
- inkişafetdirici mühiti təşkil etmək bacarığı;
- tərbiyəçi-müəllimlərdə öz hərəkətlərinə və ətraf mühitin vəziyyətinə görə məsuliyyət hissinin tərbiyəsi.

Məktəbəqədər yaşlı uşaqların dünyanı dərketmə vasitəsi olan ətraf aləmi geniş və əhatəli şəkildə qavraması tərbiyəçi-müəllimin peşəkarlığından çox asılıdır. Tərbiyəçi-müəllim mütəmadi olaraq öz hərəkətləri haqqında tənqidi düşünməyə, görülən işin nəticələrinə ciddi və obyektiv yanaşmağa, müsbət və mənfi halları qiymətləndirməyə, qarşıya qoyulan vəzifələri daha yaxşı yerinə yetirməyə səy göstərməlidir.

## Nəticə / Conclusion

Beləliklə, bu nəticəyə gəlirik ki, məktəbəqədər yaşlı uşaqların ətraf aləmlə tanış edilməsi onların bilik əldə etmələrinin ən əlçatan formasıdır. Məktəbəqədər yaşlı uşaqların ətraf aləmlə tanış edilməsində, onların dünyagörüşlərinin əsasının qoyulmasında tərbiyəçi-müəllimlərin peşə hazırlığının yüksək səviyyədə olması zəruridir. Məktəbəqədər müəssisələrdə bu işin öhdəsindən layiqincə gəlmək üçün gələcək tərbiyəçi-müəllimlərə ətraf aləmlə tanışlığın metodikası fənni tədris olu-

nur. Buna görə də tərbiyəçi-müəllim ətraf aləmdə mövcud olan obyektlər haqqında müəyyən biliklərə malik olmalıdır.

Tərbiyəçi-müəllim məktəbəqədər yaşlı uşaqların ətraf aləmlə tanış edilməsində bir çox vasitə və üsullardan istifadə edir. Təbiətlə tanışlıq məktəbəqədər yaşlı uşaqların ətraf aləmlə tanış edilməsində ən mühüm vasitədir və hər yaş mərhələsində vacibdir. Tərbiyəçi-müəllim uşaqları müxtəlif mövsümlərdə təbiətlə tanış edə bilər. Ekskursiyalar məktəbəqədər yaşlı uşaqların ətraf aləmlə tanışlığında əsas yollardan biridir.

Qrupda təbiət guşələrinin yaradılması uşaqların ətraf aləmlə tanış edilməsinin vasitələrindən biridir. Onlar bu guşələrdə bitkilərə və heyvanlara qulluq etməklə əmək vərdişlərinə yiyələnirlər. Tərbiyəçi-müəllim filmlərdən istifadə edərək müşahidə edilməsi mümkün olmayan obyekt və hadisələr haqqında onlara məlumat verə bilər.

İstifadə olunan metodlara müşahidəni və oyunları daxil etmək olar. Uşaqların təbiətlə tanış edilməsində müşahidələrin böyük əhəmiyyəti vardır. Müşahidələr uşağın dərketmə maraqlarının formalaşmasında və təmin olunmasında  mühüm rol oynayır. Tərbiyəçi-müəllim hekayələrin oxunmasından, canlı və cansız təbiətə aid söhbətlərdən istifadə edə bilər. Onun peşəkarlığı nə qədər yüksək olarsa, daha çox vasitə və üsullardan istifadə etmək imkanına malik olar.

Məktəbəqədər müəssisələrdə əyaniliyi təmin etmək üçün didaktik materiallardan istifadə olunması vacibdir. Bu materiallar uşaqlara dərketmə məsələlərini müstəqil həll etmək imkanı verir.

Məktəbəqədər yaşlı uşaqların ətraf aləmlə tanış edilməsi vasitəsi ilə hərtərəfli inkişaf etdirilməsi tərbiyəçi-müəllimlərin qarşısında duran əsas vəzifələrdən biridir.

**Məqalənin aktuallığı.** Məktəbəqədər yaşlı uşaqda dərketmə proseslərinin inkişafında, lüğət ehtiyatlarının zənginləşdirilməsində ətraf aləmlə tanışlığın böyük rolu vardır. Bu baxımdan tərbiyəçi-müəllimlər uşaqların öyrənmə mənbəyi olan ətraf aləm haqqında hərtərəfli biliklərə malik olmalı, daim öz üzərlərində işləyərək peşə hazırlığını inkişaf etdirməlidirlər. Ətraf aləmlə tanışlığın metodikası fənni tərbiyəçi-müəllimlərin peşəkarlığının artırılmasında geniş imkanlara malikdir. Tərbiyəçi-müəllimlərin bu fənn vasitəsilə peşə hazırlığına cəlb olunması aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə məktəbəqədər yaşlı uşaqların ətraf aləmlə tanış edilməsində tərbiyəçi-müəllimin peşə hazırlığının əhəmiyyəti və istiqamətləri göstərilmişdir. Tədqiqat işində ətraf aləmlə tanışlığın təşkili, məktəbəqədər yaşlı uşaqların əqli, əxlaqi, estetik, ekoloji tərbiyəsinin formalaşmasında ətraf aləmlə tanışlığın rolu araşdırılmışdır. Tələbələrə ətraf aləm amillərinin müsbət təsiri nəticəsində məktəbəqədər yaşlı uşaqlarda bilik və vərdişlərin formalaşdırıl-

ması, inkişafı yollarını aşılamaq tədqiqatın elmi yeniliyi hesab edilə bilər.

**Məqalənin praktik əhəmiyyəti.** Tərbiyəçi-müəllimlərin peşəkar hazırlığı nə qədər yüksək olarsa, uşaqların ətraf aləmi daha düzgün dərk etmələrinə o qədər mühüm təsir göstərəcəkdir. Tərbiyəçi-müəllimlərin ətraf aləmlə tanışlığın metodikası fənni vasitəsi ilə öyrəndikləri biliklər gələcək fəaliyyətlərində onlardan bacarıqla istifadə etmələrinə imkan verəcəkdir. Məqalədən tədqiqat işlərinin yazılmasında və dərs vəsaitlərinin hazırlanmasında, ətraf aləmlə tanışlıq məşğələlərində istifadə oluna bilər.

## İstifadə olunmuş ədəbiyyat / References

1. Əhmədova A., Əliyeva Ş. (2010). Uşaqların emosional aləminin inkişafı. Bakı.
2. Əliyeva Ş. (2010). Məktəbəqədər təhsilin aktual problemləri. Bakı.
3. Əliyeva S. (2022). Məktəbəqədər təhsildə müasir təlim texnologiyaları. Bakı.
4. Əliyeva Ş. (2010). Məktəbəqədər pedaqogika. Bakı.
5. Əliyeva Ş., Həmidova X. (2020). İnkişafetdirici, dəstəkləyici və təhlükəsiz mühitin yaradılması (məktəbəqədər təhsil ixtisası üçün dərs vəsaiti). Bakı.
6. Həmidova X. (2019). Böyük qruplar üçün təlim vəsaitləri «Ətraf aləmlə tanışlıq və nitq inkişafı», (metodik vəsait), Bakı.
7. Məktəbəqədər təhsilin proqramı (kurikulumu). (2022). Bakı.
8. Məktəbəqədər təhsil. (2022). (tərbiyəçi-müəllimlər və metodistlər üçün stolüstü kitab). Bakı.
9. Mursaqulova R., Əliyeva Ş. (2008). Məktəbəqədər yaşlı uşaqların təbiətlə tanış edilməsi metodikası. Bakı.
10. Sadıqova T. (2008). Məktəbəhazırlıq qruplarında ətraf aləmlə tanışlıq üzrə məşğələlər. Bakı.
11. Sadıqova T., Əliyeva Z. (2011). Məktəbəqədər yaşlı uşaqların ətraf aləmlə tanışlığı prosesində oyunlardan istifadə. Bakı, "Adiloğlu".